

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 44 (22.955)

6 mart 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Martın 5-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi İlham Əliyevə təbriklərini çatdırıb və namizədlik vəsiqəsini ona təqdim edib.

Dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə edib, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Mərakeş Krallığının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bouritanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həmrəylik göstərdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı sürətdə dəstəklənməsinin önəmini qeyd edib.



## Naxçıvanda bu ilin ilk iməciliyi keçirilmişdir



Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev deyirdi: ***"Təbiəti duymaq, dinləmək, onun keşiyində durmağı bacarmaq psixologiyasını böyüyən nəslə aşılamaq ən yaxşı təbiət dərsidir".***

Naxçıvan Muxtar Respublikasında təbiətə qayğı ilə yanaşılır. Hər il baharın gəlişi xalqımızın min illər ərzində formalaşmış adət-ənənələrinə uyğun olaraq ağac əkməklə, səliqə-sahman yaratmaqla qarşılanır. Təbiətin oyandığı ilk günlərdən iməciliklər keçirilir, yeni meyvə bağları salınır, mövsümə uyğun aqrotexniki tədbirlər görülür. Bu ilin yazında da muxtar respublikada 200 hektara yaxın sahədə meyvə bağlarının salınması nəzərdə tutulur.

Martın 3-də Naxçıvan Muxtar Respublikasında iməcilik keçirilmiş, yeni meyvə bağları salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba Su Anbarının kənarında keçirilən iməcilikdə iştirak etmişlər. İməcilik keçirilən 2 hektar ərazidə 1500 meyvə tingi əkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir. Ali Məclisin Sədri yaz aylarında əkin işlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikada keçirilən iməciliklərdə 23 minə yaxın adam iştirak etmiş, 10 mindən artıq meyvə tingi, 2500 meşə ağacı, 2100 gül və bəzək kolu əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbinin bazasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Məktəbin fəaliyyətinin təmin olunması üçün zəruri tədbirlər görsün.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 mart 2018-ci il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi (bundan sonra - Məktəb) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli 107-V FR nömrəli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbinin bazasında yaradılmış xüsusi təyinatlı orta ixtisas təhsili müəssisəsidir.

1.2. Məktəb müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, bank hesablarına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhür, ştamp və blanka malikdir.

1.3. Məktəbin fəaliyyətinin əsas istiqaməti daxili işlər orqanları üçün orta ixtisas təhsilli zabit kadrlar hazırlamaq və daxili işlər orqanları əməkdaşlarının əlavə təhsil almalarını təşkil etməkdir.

1.4. Məktəb öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsini, digər normativ hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

1.5. Məktəb qanunvericiliyə uyğun olaraq statistik və maliyyə hesabatlarını tərtib edir, fəaliyyətinin nəticələri barədə aidiyyəti üzrə hesabat verir.

1.6. Məktəb Naxçıvan şəhərində yerləşir.

### 2. Məktəbin fəaliyyətinin əsas istiqamətləri

2.1. Məktəbin fəaliyyətinin əsas istiqamətləri tədris, təlim-tərbiyə və metodiki işlərdən ibarətdir.

2.2. Tədris işi daxili işlər orqanlarında xidmətin tələblərinə uyğun nəzəri və praktik biliklərə yiyələnmiş, intellektual təfəkkürə malik kadrlar hazırlamaqdan, əlavə təhsili və təlim məşğələlərini həyata keçirməkdən, kurs və diplom işlərinə, təcrübi məşğələlərə rəhbərlik etməkdən ibarətdir.

2.3. Təlim-tərbiyə işinin mahiyyəti aşağıdakılardan ibarətdir:

2.3.1. dəyişən heyətə vətənpərvərlik hissləri aşılamaq, onları qanunlara, əsas insan və vətəndaş hüquq və azadlıqlarına hörmət ruhunda tərbiyə etmək;

2.3.2. dövlətə, xalqa sədaqət, xidməti borcun yerinə yetirilməsinə məsuliyyətlə yanaşma, yüksək intizam və mənəviyyat, mətinlik, fiziki dözümlülük və peşəkarlıq keyfiyyətlərini aşılamaq;

2.3.3. nizam-intizamı, səfərbərlik hazırlığını təmin etmək;

2.3.4. dəyişən heyətin milli və ümumbəşəri dəyərlərə yiyələnməsini təmin etmək.

2.4. Metodiki işin əsas formaları aşağıdakılardır:

2.4.1. tədris məşğələlərinin, təlim-tərbiyə işinin aparılması və təminatı üçün tədris-metodiki sənədlərin işlənilməsi;

2.4.2. rəhbər heyətin, müəllim heyətinin pedaqoji ustalıqlarının artırılması, bu məqsədlə müşavirə, konfrans, seminar və metodik məşğələlərin keçirilməsi;

2.4.3. tədris məşğələlərinə nəzarətin təşkili və aparılması;

2.4.4. pedaqoji (metodik) təcrübə keçirilməsi və onun nəticələrinin tədris prosesində tətbiqi;

2.4.5. yerli şəraitdən və imkanlardan asılı olaraq tədris fənləri üçün ayrılan vaxt hesabına tədris-düşərgə toplanışları və əməliyyat təlimləri keçirmək;

2.4.6. dövlət imtahanlarına daxil edilən ixtisas fənlərini müəyyənləşdirmək.

### 3. Məktəbin vəzifələri və hüquqları

3.1. Məktəbin vəzifələri aşağıdakılardır:

3.1.1. nəzəri və praktik biliklərə yiyələnmiş, intellektual təfəkkürə malik kadrlar hazırlamaq, onların əlavə təhsilini həyata keçirmək;

3.1.2. təhsil proqramlarını və tədris planlarını hazırlamaq;

3.1.3. təhsilalanların attestasiyasını keçirmək;

3.1.4. təhsil haqqında diplomlar, habelə qanunvericiliyə uyğun olaraq təhsilə dair digər sənədlər vermək;

3.1.5. tədris prosesinin maddi-texniki təminatını həyata keçirmək;

3.1.6. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, dəyişən heyətin intellektual, mədəni və mənəvi inkişafını təmin etmək, peşəkarlıq xüsusiyyətlərini formalaşdırmaq;

3.1.7. xarici dil və kompüter dəstəkli təlimlərin təşkili və keçirilməsini təmin etmək;

3.1.8. Məktəbə ayrılan maliyyə vəsaitinin təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.9. təhsil prosesinin təmin edilməsi üçün tədris, tədris-

*Ardı 2-ci səhifədə*

metodiki, köməkçi materiallar hazırlamaq və nəşr etmək, maddi-tədris bazasını təkmilləşdirmək və inkişaf etdirmək;

3.1.10. dövlət sirrinin və məxfilik rejiminin qorunmasını təmin etmək;

3.1.11. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

3.2. Məktəb aşağıdakı hüquqlara malikdir:

3.2.1. qanunvericiliyə və bu Nizamnaməyə uyğun olaraq tədris prosesini həyata keçirmək;

3.2.2. tədris-metodiki fəaliyyəti planlaşdırmaq və təşkil etmək;

3.2.3. tədris prosesinin metodiki təminatını təşkil etmək və təkmilləşdirmək;

3.2.4. iclaslar, seminarlar və konfranslar keçirmək;

3.2.5. Məktəbin işçilərinə fəxri adların, digər dövlət təltiflərinin və mükafatların verilməsi üçün Naxçıvan Muxtar Respublikasının daxili işlər nazirinə təkliflər vermək;

3.2.6. Məktəbin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən zəruri məlumatların alınması barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.7. Məktəbin fəaliyyətinin təşkili məqsədi ilə öz səlahiyyətləri daxilində aktlar qəbul etmək;

3.2.8. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**4. Məktəbin strukturu və idarə olunması**

4.1. Məktəbin ştat strukturu Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilir.

4.2. Məktəbin strukturuna rəhbərlik, fənn birləşmə komissiyaları, şöbələr və xidməti bölmələr daxildir.

4.3. Məktəbin rəhbərliyi Məktəbin rəisi və müavinindən ibarətdir.

4.4. Məktəbin rəisi Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən, Məktəbin rəis müavini, orta və böyük rəis heyəti vəzifələrinə daxil olan şəxslər Məktəb rəisinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

4.5. Məktəbin fəaliyyətinə ümumi rəhbərliyi Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi, bilavasitə rəhbərliyi Məktəbin rəisi həyata keçirir.

4.6. Məktəbin rəisi bütün şəxsi heyətin birbaşa rəisi olmaqla, Məktəbin fəaliyyətini təşkil edir və Məktəbə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların qorunması üçün şəxsən məsuliyyət daşıyır.

4.7. Məktəbin rəisi bu Nizamnamədə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində əmr və göstərişlər verir, Məktəbi təmsil edir.

4.8. Məktəbin rəisi aşağıdakı sahələrə ümumi rəhbərliyi həyata keçirir:

4.8.1. təhsil, təlim-tərbiyə və metodiki fəaliyyət;

4.8.2. müəllim və elmi kadrların, habelə digər işçilərin seçilməsi, yerləşdirilməsi və əlavə təhsili;

4.8.3. səfərbərlik, xidməti və döyüş hazırlığının təmin olunması;

4.8.4. dövlət sirrinin və məxfilik rejiminin qorunması, Məktəbdə daxili təhlükəsizliyin təmin olunması;

4.8.5. Məktəbin Pedaqoji Şurasının və digər məşvərətçi qurumlarının işinin təşkili;

4.8.6. Məktəbin maliyyə-təsərrüfat fəaliyyəti.

4.9. Kadrlarla iş sahəsində Məktəbin rəisi:

4.9.1. səlahiyyəti daxilində sıravi və kiçik rəis heyətinə daxil olan şəxsləri və digər işçiləri işə qəbul və işdən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq edir, rütbələr verir;

4.9.2. daxili işlər orqanlarından, eləcə də digər idarə, müəssisə və təşkilatlardan təhsil və təsərrüfat işlərinə saathesabı və müqavilə ödənişi şərtləri ilə mütəxəssis və müəllim cəlb edir;

4.9.3. Məktəbin şəxsi heyətinin attestasiyasını keçirir;

4.9.4. orta və böyük rəis heyətinə daxil olan şəxslərin vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair təkliflər verir.

4.10. Məktəbin rəis müavininin vəzifələrini Məktəbin rəisi müəyyən edir.

4.11. Məktəbin rəis müavini ona həvalə olunmuş sahələrdə işin vəziyyətinə görə məsuliyyət daşıyır.

4.12. Məktəbdə təlim-tədris və tədris-metodiki işi təhsil qanunvericiliyi və digər normativ hüquqi aktlara uyğun təşkil edilir.

4.13. Məktəbin fəaliyyətinin mühüm məsələlərinin müzakirəsi üçün Məktəbin Pedaqoji Şurası (bundan sonra - Pedaqoji Şura) yaradılır.

4.14. Pedaqoji Şuranın tərkibi Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilir. Pedaqoji Şuranın tərkibinə tutduqları vəzifələrə görə Məktəbin rəisi (Pedaqoji Şuranın sədri), rəis müavini, aparıcı fənn birləşmə komissiyalarının, tədris şöbələrinin, kadrlar xidmətinin və kursların rəisləri daxildir.

4.15. Pedaqoji Şuranın sədr müavini və katibi Pedaqoji Şuranın tərkibindən seçilir.

4.16. Pedaqoji Şuranın fəaliyyəti qanunvericiliyin tələblərinə uyğun təşkil edilir. Pedaqoji Şura ictimai əsaslarla fəaliyyət göstərir.

4.17. Pedaqoji Şuranın qərarları Məktəb rəisinin əmrləri ilə təsdiq olunur.

**5. Məktəbə qəbul**

5.1. Məktəbə qəbul planı dövlət sifarişi ilə Məktəbin və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin təklifləri əsasında müəyyənləşdirilir.

5.2. Məktəbə qəbul biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

5.3. Məktəbə daxili işlər orqanlarında azı 1 il xidmət stajına malik, 30 yaşa qədər, sıravi və kiçik rəis heyəti əməkdaşları, habelə ümumi təhsil müəssisələrini bitirmiş, hərbi xidmət keçmiş 30 yaşa qədər, tam orta təhsilli şəxslər qəbul oluna bilərlər.

5.4. Məktəbdə təhsil 2 ildir.

5.5. Məktəbə qəbul Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin əmri ilə təsdiq olunur.

5.6. Məktəbə qəbul edilən şəxslər qanunla müəyyən olunmuş qaydada and içirlər.

**6. Məktəbdə tədris işinin təşkili**

6.1. Məktəbdə tədris işi tədris planlarına və fənn proqramlarına uyğun təşkil olunur və aparılır. Tədris planı aidiyyəti üzrə razılaşdırılmaqla Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri tərəfindən təsdiq olunur.

6.2. Semestrin müddəti, kursant və dinləyicilərin məcburi auditoriya dərsləri və həftəlik tədris işi orta ixtisas təhsilinin dövlət standartlarına müvafiq olaraq müəyyən edilir.

6.3. Məktəbdə tədris Azərbaycan dilində aparılır.

6.4. Məktəbin tədris məşğələlərinə mühazirə, seminar, praktiki məşğələ, təlim, məsləhət saatı və müstəqil hazırlıq saatı daxildir. Ayrı-ayrı fənlər üzrə nəzəri (elmi-praktik) konfranslar və digər məşğələlər keçirilə bilər.

**7. Daimi və dəyişən heyət**

7.1. Məktəbin şəxsi heyəti daimi və dəyişən heyətdən ibarətdir.

7.2. Daimi heyət rəhbərlik, müəllim və vəzifələri təşkilati-ştat əmri ilə təsdiq edilmiş digər polis əməkdaşlarından və mülki şəxslərdən ibarətdir.

7.3. Daimi heyətdən olan əməkdaşların hüquq və vəzifələri qanunvericiliklə müəyyən olunur.

7.4. Müəllim heyəti vəzifələrinə yüksək peşə hazırlığına, sağlamlıq və mənəvi keyfiyyətlərinə görə dərs demək bacarığına malik polis əməkdaşları və mülki şəxslər təyin olunur.

7.5. Müəllim heyəti vəzifələrinə təyinat zamanı elmi ada və elmi dərəcəyə, vəzifənin profilinə uyğun ali təhsilə, pedaqoji təcrübəyə və iş stajına malik şəxslərə üstünlük verilir.

7.6. Tədris, təlim-tərbiyə, metodiki işlər fənn birləşmə komissiyalarının planları, həmçinin tədris ili üçün fərdi planlar əsasında Məktəbin müəllim heyəti tərəfindən həyata keçirilir.

7.7. Pedaqoji işçilərə fəxri adların verilməsi qanunvericiliyə uyğun olaraq tənzimlənir.

7.8. Müəllim heyətinə əmək intizamını pozduqlarına görə intizam tənbehi tədbirləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada tətbiq edilir.

7.9. Dinləyicilərin əlavə təhsil alması müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

7.10. Məktəbin dəyişən heyətinə Məktəbdə təhsil alan şəxslər aid edilir. Xidmət mövqeyinə görə dəyişən heyət kursantlara və dinləyicilərə bölünür.

7.11. Kursantlar - orta ixtisas təhsili almaq məqsədi ilə Məktəbə qəbul olunmuş şəxslərdir. Dinləyicilər - Məktəbdə əlavə təhsil alan daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti əməkdaşlarıdır.

7.12. Dəyişən heyətin tərkibinə daxil olan şəxslər xidmətdə hesab edilirlər və onlara daxili işlər orqanları əməkdaşlarının müvafiq kateqoriyaları üçün müəyyən edilmiş hüquq və güzəştlər şamil olunur.

7.13. Dəyişən heyətin tərkibinə daxil olan şəxslərin pul, geyim, ərzaq və yaşayış yeri (yataqxana, kazarma) təminatı dövlət tərəfindən həyata keçirilir.

7.14. Dəyişən heyətin təhsil müddəti dövründə hüquq və vəzifələri müvafiq normativ hüquqi aktlarla müəyyən olunur.

7.15. Taqım komandirinin müavini, tədris qruplarının, manqaların komandirləri Məktəb rəisinin əmri ilə həmin kursun kursantlarından təyin olunur.

7.16. Dəyişən heyətdən olan şəxslər təhsildə və təlimdə əldə etdikləri yüksək göstəricilərə, məktəbin ictimai işlərində fəal iştiraka və xidməti borcun nümunəvi yerinə yetirilməsinə görə müvafiq normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada həvəsləndirilirlər.

7.17. Məktəbdə təhsil alanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericiliklə müəyyən edilmiş qaydada təqaüdlər, o cümlədən adlı təqaüdlər və yardımlar verilir.

7.18. İntizamı pozduqlarına görə dəyişən heyətdən olan şəxslərə intizam tənbehi tədbirləri tətbiq edilir.

7.19. Dəyişən heyətdən olan şəxslər Məktəbdən aşağıdakı hallarda xaric edilirlər:

7.19.1. öz arzusu ilə;

7.19.2. digər təhsil müəssisəsinə keçirilməsi ilə əlaqədar;

7.19.3. səhhətinə görə (xüsusi həkim komissiyasının qərarına əsasən);

7.19.4. təhsildə müvəffəqiyyətsizliyə görə;

7.19.5. Məktəbin daxili nizam qaydalarını kobud şəkildə və dəfələrlə pozduğuna görə;

7.19.6. qanunla daxili işlər orqanlarının əməkdaşları üçün müəyyən olunmuş tələblərə uyğun olmaması ilə əlaqədar.

7.20. Dəyişən heyətdən olan şəxsin digər təhsil proqramına və ya orta ixtisas təhsili müəssisəsinə köçürülməsi, xaric edilməsi, akademik məzuniyyət alması və bərpa olunması məsələləri qanunvericiliklə müəyyən edilmiş qaydada tənzimlənir. Polis əməkdaşlarının Məktəbdən xaric edilməsi və ya Məktəbə bərpa olunması Məktəbin rəisinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin əmri ilə həyata keçirilir.

7.21. Kursantların digər orta ixtisas təhsil müəssisələrinə keçirilməsinə yeni dərs ilinin başlanmasına qədər icazə verilir.

7.22. Dövlət imtahanlarını vermiş kursantlara Məktəbdə yaradılan Dövlət Attestasiya Komissiyasının qərarı ilə alınmış peşəyə uyğun olaraq ixtisas verilir, onlara diplom və döş nişanı təqdim olunur. Əlavə təhsilə cəlb olunmuş sıravi və kiçik rəis heyəti əməkdaşlarına müvafiq sertifikat verilir.

7.23. Məktəbi bitirmiş kursantlara “polis kiçik leytenantı” xüsusi rütbəsi verilir.

**8. Maliyyə-təsərrüfat fəaliyyəti**

8.1. Məktəb dövlət büdcəsinin vəsaitləri və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

8.2. Məktəbin maddi-tədris bazası müəyyən olunmuş ixtisaslar üzrə tədris planlarına, proqramlarına və müasir tədris metodikasına uyğun olaraq kursantların və dinləyicilərin hazırlığını təmin etmək üçün nəzərdə tutulmuş maddi və texniki vasitələr kompleksidir.

8.3. Məktəbin maddi-texniki bazasını torpaq sahələri, binalar, tikililər, müxtəlif qurğular, silah və texnika, tədris əmlakı, tədrisin texniki vasitələri, tədris-metodiki materiallar, elmi və bədii ədəbiyyat, xüsusi texnika, nəqliyyat vasitələri, avadanlıqlar və digər obyektlər, habelə başqa qiymətli maddi-texniki təchizat vasitələri təşkil edir.

8.4. Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin razılığı olmadan Məktəb tərəfindən istifadə edilən bina və qurğuların, torpaq sahələrinin xidməti təyinatının dəyişdirilməsinə icazə verilmir.

8.5. Məktəbin maddi-tədris bazasının inkişafı və təkmilləşdirilməsi Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilən perspektiv planlar və Məktəbin rəisi tərəfindən təsdiqlənən illik planlar əsasında həyata keçirilir.

8.6. Məktəb əmlakın, pul vəsaitlərinin vəziyyəti və istifadə edilməsi barədə aidiyyəti üzrə hesabat verir, cari mühasibat uçotunu həyata keçirir.

**9. Məktəbin yenidən təşkili və ləğvi**

Məktəbin yenidən təşkili və ləğvi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir.

# Böyük Azərbaycan şairi Nizami Gəncəvi

***Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi böyük ədəbi şəxsiyyət, görkəmli şair və mütəfəkkir Nizami Gəncəvi ölməz əsərləri ilə dünya şöhrəti qazanmışdır. Nizami Gəncəvinin adı dünya ədəbiyyatının ən görkəmli klassikləri sırasında çəkilir. Nizami Gəncəvi (1141-1209) də Dante, Servantes, Şekspir, Əbdürrəhman Cami, Əlişir Nəvai, Məhəmməd Füzuli, Balzak, Viktor Hüqo kimi mənsub olduqları xalqın milli iftixarı olan sənətkar olmaqla bərabər, həm də dünya ədəbiyyatını yüksək səviyyədə təmsil edir.***

Dünyanın harasından, Şərqdən, yoxsa Qərbdən baxılmasından asılı olmayaraq, Nizami Gəncəvi şeir-sənət səmasında günəş kimi parlayır. Bütövlükdə, mədəni dünya Nizami Gəncəvini dahi şair, qüdrətli sənətkar, bəşəri təfəkkürə malik böyük mütəfəkkir kimi qəbul edir. Bu mənada, Nizami Gəncəvi söz sənətinin möhtəşəm bahadırıdır. Onun əsərlərində dünyanın bir çox ölkələrinin və xalqlarının həyatından alınmış ibrətamiz süjetlər və işıqlı, düşündürücü obrazlar vardır. Ölməz sənətkarın “Xəmsə” adlanan məşhur poemaları sanki Qərbin və Şərqin ədəbiyyat ensiklopediyasıdır. Yunanıstandan Hindistana, Ərəbistandan Rusiyaya, İrandan Balkanlara qədərki geniş məkanın hadisələri və şəxsiyyətlərini Nizami Gəncəvi böyük məharətlə ədəbiyyata həkk etmişdir. Böyük fateh Makedoniyalı İsgəndərin az qala dünyanın yarısını əhatə edən yürüşlərini heç bir sənətkar dünya ədəbiyyatında Nizami Gəncəvi miqyasında yüksək bədii səviyyədə işıqlandıra bilməmişdir. Nizami Gəncəvinin bir sənətkar kimi şöhrətini daha çox Makedoniyalı İsgəndərlə müqayisə etmək olar. İsgəndərin qılıncla fəth etdiyi ölkələri Nizami Gəncəvi qələmlə ram etmişdir. Bu mənada, Nizami Gəncəvi dünya ədəbiyyatının Makedoniyalı İsgəndəridir. O, Azərbaycan ədəbiyyatına Makedoniyalı İsgəndər şöhrəti qazandırmışdır. Makedoniyalı İsgəndərin bir xidməti də Qərb anlayışını Şərq xalqlarına çatdırmaq olduğu kimi, Nizami Gəncəvinin dünya dillərinə tərcümə edilmiş əsərləri vasitəsilə Avropa xalqları geniş şəkildə Şərqi tanımaq imkanı qazanmışlar. Bu mənada, Nizami Gəncəvi Şərq dünyasının və Azərbaycanın Qərb ölkələrində və ümumən, dünyada ən böyük bələdçisidir.

Nizami Gəncəvi 1141-ci ildə Azərbaycanın qədim Gəncə şəhərində anadan olmuşdur. Tarixboyu Gəncə şəhəri həmişə Azərbaycana aid olmuş, bu şəhərdə azərbaycanlıların

*Ardı 3-cü səhifədə*

ulu babaları olan oğuz tayfaları yaşamışlar. Özünə Nizami Gəncəvi təxəllüsü qəbul etmiş İlyas Yusif oğlu Gəncə şəhərində mədrəsə təhsili almış, həyatını, əsasən, bu şəhərdə keçirmişdir. Ehtimala görə, o, çox az hallarda Gəncə şəhərindən kənara çıxmışdır. Şairin Gəncədən çıxaraq getdiyi yerlərdən birinin Həmdünyan kəndi olduğunu iddia edirlər. "Xosrov və Şirin" poemasında yazıldığına görə, Nizami Atabəy Qızıl Arslan tərəfindən 1187-ci ildə ona bağışlanmış bu kəndə getmiş, "gəlirindən artıq onun xərci" olan cəmi "yarımca ağac"lıq" bu kəndin ona ərmağan edilməsindən razı qalmamışdır.

Tədqiqatçıların əksəriyyəti Həmdünyan kəndinin bağışlanması faktının Qızıl Arslanın Nizami ilə Gəncə şəhəri ətrafındakı görüşü zamanı baş tutduğu qənaətindədir. Bununla belə, həmin tarixi görüşün Gəncə yaxınlığında deyil, Gəncə şəhəri ilə Təbriz arasındakı ortaq bir məntəqədə baş verdiyi ehtimal edən mülahizələr də vardır. Görkəmli Nizamişünas alim, professor Rüstəm Əliyevə məxsus olan bu mülahizəyə əsasən Nizami Gəncəvi Qızıl Arslanla Naxçıvan ərazisindəki məşhur Batabat yaylağına yaxın bir yerdə – Zəngəzur mahalına aid Şəki kəndi ətrafında görüşmüşdür. Tədqiqatçı Əjdər Fərzəli isə həmin görüşün marşrutunu da müəyyən etmişdir: Gəncə-İstisu-Naxçıvan. Bütün hallarda Nizami Gəncəvinin Qızıl Arslanla tarixi görüşü Azərbaycan coğrafiyasına aid olan ərazidən kənarda deyildir.

Yeri gəlmişkən deyək ki, Nizami Gəncəvinin dövrünün görkəmli sənətkarı, böyük müasiri, Şərq memarlıq məktəbinin yaradıcısı və ən böyük nümayəndələrindən biri Əcəmi Əbubəkr oğlu Naxçıvani ilə görüşməsinə dair də ehtimallar vardır. Fikrimizcə, bir çox səbəbdən bu iki nəhəng sənətkarın görüşməsi haqqındakı mülahizələr məntiqə uyğundur. Memarlığın daş "Xəmsə"sini yaratmış böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin onunla eyni dövrdə yaşamış söz sənəti "Xəmsə"sinin qüdrətli yaradıcısı Nizami Gəncəvi ilə görüşməsi bu iki böyük dühanın bir-birinin yaradıcılığına və xidmətlərinə hörmət və ehtiramının ifadəsi deməkdir. Eyni əsrdə, vahid ölkə daxilində yaşayan bu qədər nəhəng sənətkarların bir-birini görməyə, tanımağa ehtiyac duymamaları qeyri-mümkündür. Bu mütəfəkkir simaların hər ikisinin Azərbaycan Atabəylər dövlətinə yaxın olmaları da onların görüşünü şərtləndirir. Atabəylər dövlətinin paytaxtının Gəncədən Naxçıvan şəhərinə köçürülməsi iki böyük dühanın görüşünün Naxçıvan ərazisində baş tutmasını düşünməyə əsas verir. XIX əsrin tanınmış rus rəssamı A.Bondarenko da Nizami Gəncəvi ilə Əcəmi Əbubəkr oğlu Naxçıvaninin görüşünə dair geniş yayılmış rəsm əsərində fonda Naxçıvan məqbərəsinin görüntülərini canlandırmışdır. Azərbaycanın xalq şairi Nəriman Həsənzadənin "Atabəylər" tarixi dramında da Nizami Gəncəvi ilə memar Əcəminin Naxçıvandakı görüşü qələmə alınmışdır.

Nizami Gəncəvinin tərcümeyi-halı qədim Azərbaycan əraziləri olan Gəncə ilə yanaşı, Bərdə, Naxçıvan, Dərbənd şəhərləri, Həmdünyan və Şəki kəndləri kimi Azərbaycan coğrafiyasına aid olan yaşayış məntəqələri ilə bağlı olmuşdur.

Ailə qurduğu "qıpçaq gözəli" Afaqın Azərbaycanın tarixi ərazilərindən sayılan Dərbənd şəhərindən olması Nizami Gəncəvinin azərbaycanlı ailəsi qurması faktını təsdiq edir. Dahi şair "İsgəndərnamə" poemasında Dərbənd qalasını da ilhamla tərənnüm etmişdir:

*Burda bir qala var ki, cənub yeli,*
*Əssə də o yerə uzanmaz əli.*
*Minadan bir daşdır, saçar müşk, ənbər,*
*Həm gözəl, həm şəndir, bir cənnət qədər.*

Qıpçaq gözəli Afaq xanım Nizami Gəncəviyə Dərbənd hakimi Müzəffər ibn Məhəmməd Arslan ibn Xələf əs Sultan tərəfindən göndərilmişdir. Bu nikahdan Nizaminin Məhəmməd adlı oğlu dünyaya gəlmişdir. Nizami Gəncəvi ayrı-ayrı əsərlərində oğlu Məhəmməddən bəhs edərək, onu "gözümün nuru", "dilimin əzbəri", "ömrümün ilk gülü", "ağız ləzzətim", "ciyərparəm", "ilk piyalam" kimi vəsf etmişdir. Rəvayətə görə, oğlu Məhəmməd də atası kimi şair olmaq istəmiş, hətta şeirlər də yazmışdır. Lakin Nizami Gəncəvi oğluna həkim olmağı məsləhət bilmişdir:

*Şeirdən ucalıq umma dünyada,*
*Çünki Nizamiylə qurtardı o da.*
*Hərçəndi sənətin çox rütbəsi var,*
*Həyatda faydalı bir elmi axtar.*
*…Elmlər elmidir demiş peyğəmbər,*
*Din elmi, təbabət elmi müxtəsər.*
*…İsa mərifətli həkim ol, amma,*
*İnsanı öldürən bir həkim olma.*
*…Həyat da, ölüm də qul olar sana,*
*Səadət və şöhrət düşər payına.*

Nizami Gəncəvinin müxtəlif əsərlərində öz əksini tapmış oğlu Məhəmmədə nəsihətləri, ümumən, Azərbaycan ədəbiyyatında nəsihətnamə janrında yazılmış dəyərli poetik nümunələrdir. Bu dərinmənalı nəsihətlər neçə yüz illərdir ki, həm Azərbaycanda, həm də dünyada yeni nəsillərin yetişib formalaşmasına öz töhfəsini verir.

Nizami Gəncəvi dünya ədəbiyyatında "Xəmsə" adı ilə tanınan 5 məşhur poeması ilə böyük şöhrət qazanmışdır. İlk növbədə, onu qeyd etmək lazımdır ki, Nizami Gəncəvi Şərq ədəbiyyatında, türk-müsəlman dünyasında "Xəmsə" ("Beşlik") adlanan poemalar silsiləsinin əsasını qoymuşdur. Böyük ustad sənətkardan sonra "Xəmsə" yaratmaq Şərq ədəbiyyatında ənənəyə çevrilmiş, bir çox xalqların şairləri "Beşlik" poemalar yaratmışlar. Fars-tacik ədəbiyyatında Əbdürrəhman Cami, cığatay poeziyasında Əlişir Nəvai, Hindistanda Əmir Xosrov Dəhləvi və başqaları Nizami Gəncəvinin yolunu davam etdirərək "Xəmsə"lər yazmış, bu böyük işi əsrlərdən-əsrlərə daşımışlar.

Qüdrətli sənətkarın "Xəmsə"sinə daxil olan ilk əsəri 1174-cü ildə yazılmış "Sirlər xəzinəsi" poemasıdır. Cavan yaşlarında yazılmasına və birinci böyük əsəri olmasına baxmayaraq, "Sirlər xəzinəsi" poeması Nizami Gəncəvinin həyata və ədəbiyyata bələdlik mənasında, həqiqətən, sirlər xəzinədarı olduğunu göstərir. Poemada verilmiş 20 məqalədə (hekayədə) Nizami Gəncəvi dövrünün ən aktual məsələlərini təsvir etmiş, bədii sənətin ali qayələrini diqqətə çatdırmışdır. Nizami Gəncəvinin bütün yaradıcılığı boyu düşündürən humanizm və bərabərlik, ədalətli hökmdar və xalq, əməkçi insan və mənəvi kamillik, sərvət və şəxsiyyət kimi böyük ictimai mətləblər ilk dəfə "Sirlər xəzinəsi" əsərində öz əksini tapmışdır. Şairin bu əsərdə yaratdığı Kərpickəsən kişi obrazı nəinki Azərbaycan poeziyasında, geniş mənada, Şərq ədəbiyyatında yeni idi. Bu mənada, "Sirlər xəzinəsi" poeması Nizami Gəncəvi yaradıcılığının ədəbi proqramıdır. Dahi şairin sonrakı ölməz əsərlərindəki mövzuların və ideyaların mütləq əksəriyyəti "Sirlər xəzinəsi"ndən qida alır.

Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması (1180) Şərq ədəbiyyatında meydana çıxmış mükəmməl mənzum romandır. Dahi şair bu əsərində mövzunu hökmdarların həyatından alsa da, sələflərindən və müasirlərindən fərqli olaraq böyük eşq dastanı yaratmışdır.

"Xosrov və Şirin" poemasında ilahi eşqin fonunda bir çox ictimai mətləblərdən bəhs olunmuş, dövlət, cəmiyyət və xalq münasibətləri ibrətamiz hadisələr və yaddaqalan bədii obrazlar vasitəsilə canlandırılmışdır. Nizami Gəncəvi Fərhadın Şirinə olan pak sevgisi əsasında əsl məhəbbətin insanı ucaltmaq qüdrətini göstərmişdir. Dahi şair əsərdə Xosrov Pərvizlə Şirinin macəralarının işığında isə eşqin hökmdarı da dəyişib kamilləşdirmək imkanlarını isbat etmişdir. Bundan başqa, Nizami əsərdə mahir daşyonan Fərhadın timsalında əməkçi insanın böyük obrazını yaratmışdır.

Nizami Gəncəvinin 1188-ci ildə yazdığı "Leyli və Məcnun" poemasında insanın mənəvi dünyasının zənginlikləri parlaq və təsirli bədii vasitələrlə canlandırılır. Bu əsərdə Nizami Gəncəvi eşqin qüdrətini iki gəncin ilahi sevgisi vasitəsilə tərənnüm etmişdir. "Leyli və Məcnun" poeması Leylinin elegiyası, Məcnunun dastanıdır. Böyük sənətkarın Azərbaycan ədəbiyyatına gətirdiyi bu mövzu bütün Şərq aləmində məşhurlaşmış, sonrakı dövrlərdə yeni-yeni əsərlərin meydana çıxmasına səbəb olmuşdur.

Dahi şair "Yeddi gözəl" poeması ilə (1196) dünya xalqlarının həyatına və bəşər mədəniyyətinə dərindən bələd olan böyük sənətkar olduğunu nümayiş etdirir. Poemada təsvir edilən Bəhram şahın yeddi ölkənin şahzadəsi ilə söhbətləri Nizami Gəncəvinin bilik və dünyagörüşünün geniş miqyasını təsəvvür etməyə imkan verir. "Yeddi gözəl" əsəri ideal insan və kamil həyat haqqında yazılmış mükəmməl mənzum romandır.

Fikrimizcə, 1197-1200-cü illərdə yazdığı məşhur "İsgəndərnamə" poeması Nizami Gəncəvi sənətinin ümumiləşmiş möhtəşəm yekunudur. "İsgəndərnamə" Nizami Gəncəvi yaradıcılığının zirvəsində dayanır. Bu əsərlə Nizami antik yunan elm və mədəniyyəti ənənələrini yenidən dirçəldərək, mövzunu Azərbaycan təfəkkürü və gerçəkliyi ilə uzlaşdıraraq ədəbi mühitə, bədii əsərə gətirmişdir.

"İsgəndərnamə" Azərbaycan ədəbiyyatında janr baxımdan ilk diologiyadır. Əsərin birinci hissəsi olan "Şərəfnamə"də Makedoniyalı İsgəndərin hərbi yürüşlərinin fonunda Nizami Gəncəvinin ədalətli hökmdar və ideal cəmiyyət axtarışlarına dair görüşləri öz əksini tapmışdır. "İqbalnamə" hissəsində isə şair mütəfəkkir baxışlara malik dövlət xadimi olan İsgəndərdən bəhs edir. Nizami Gəncəvi "İqbalnamə"də dövlətin idarə olunmasında ellin amilinin rolunu ön mövqeyə çəkmişdir. Əsərdə Makedoniyalı İsgəndərin dövrünün görkəmli alimləri olan Platon, Aristotel, Sokrat və başqa alimlərlə söhbətləri və məsləhətlərinin təsviri ideal cəmiyyətin formalaşmasında müdriklik və kamilliyin əhəmiyyətini təsdiq etməyə imkan verir.

Nizami Gəncəvinin yaradıcılığında onun lirikası xüsusi yer tutur. Şairin lirik şeirlərində kiçik epik cizgilər nəzərə çarpır. O, qəribə, macəra təəssüratı yaradan süjetvarı fon zəminində lirik ovqatın ən incə və dərin təzahürlərini tərənnüm edir. Nizami Gəncəvinin lirikası dərin və nəcib insan düşüncələrinin bədii tərcümanı olan yaddaqalan və təsirli sənət nümunələridir. Dərin lirizm, həyata və insana obrazlı poetik baxış onun şeirlərinin səciyyəvi xüsusiyyətləridir. Nizami Gəncəviyə məxsus məşhur "Sənsiz" qəzəlində sənsizliyin mənalı, həyəcanlı, düşündürücü ovqatı səmimi şəkildə mənalandırılmışdır. Şairin "Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi" misrası ilə başlayan qəzəli şeirlə yazılmış kiçik mənzum novella təsiri bağışlayır.

Nizami Gəncəvi 1209-cu ildə Gəncə şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur. Hazırda dahi şair və mütəfəkkirin məzarı üzərində onun xatirəsinə möhtəşəm məqbərə ucalır.

Nizami Gəncəvinin dünyaya, bütün bəşəriyyətə məxsus olması barədə heç bir mübahisə, fikir ayrılığı yoxdur. Bu mənada, Qərb də, Şərq də Nizamidən ümumbəşəri idealları özündə əks etdirən əsərlərin dahi yaradıcısı kimi ürəkdolusu söz açır. Lakin təəssüf ki, hələ də Nizaminin fars-tacik, yaxud fars ədəbiyyatını təmsil etməsi və ya ümumi şəkildə müsəlman xalqlarına aid şair olması fikrini irəli sürən bəzi mülahizələr mövcuddur. Və bu qəbildən olan fikirlərin sahiblərinin ən çox istinad etdikləri amil dil faktorudur. Halbuki Nizami Gəncəvinin yaşadığı XII-XIII əsrlərdə fars dilində yazıb-yaratmaq təkcə Azərbaycanda deyil, Anadoluda, Qafqazda, Orta Asiyada, Hindistanda, ümumən, Şərq xalqlarının ədəbiyyatlarında qəbul olunmuş qaydalardan biri idi. Şərqdə uzun əsrlər, o cümlədən Nizaminin zamanında da "fars dili şeir dili, ərəb dili elm dili, türk dili isə hərb dili" kimi qəbul edilmişdi. Qoca Şərqin böyük dühası olan onlarla şairlər və alimlər mənsub olduqları xalqların dilində deyil, ərəb-fars dillərində yazıb-yaratmışlar. Hətta öz zamanında bunun bir çox üstünlükləri də var idi. Əvvəla, ərəb-fars dillərində elmi-ədəbi əsərlər yazmaqla görkəmli sənətkarlar, geniş mənada, ümumşərq məkanında oxunmaq, tanınmaq imkanları qazanmışlar. İkincisi, bu dillərdə danışan xalqlar avropalılara bəlli olduqları üçün ərəb-fars dilində yazıb-yaratmaq sənətkarların Qərbə çıxışlarına da münasib şərait yaratmışdır. Üçüncüsü, ərəb-fars dillərini bilməklə Nizamilər Şərq xalqlarının tarixini, ədəbiyyatlarını və mədəniyyətlərini öyrənmək, əsərlərinin mövzularını, süjetlərini və qəhrəmanlarını çox geniş ictimai-tarixi mühitdən almaq imkanı əldə etmişlər. Beləliklə, Azərbaycanda ədəbiyyatın əhatə etdiyi coğrafiyada təbii olaraq fars dili daha geniş məkanı özündə cəmləşdirmişdir. Bu mənada, Nizami Gəncəvi Şərqin qüdrətli sənətkarıdır – dedikdə, ən azı aşağıdakılar nəzərdə tutulur: Nizami İslam dininə mənsub olan böyük şairdir; O, ilk növbədə, Şərq aləmində tanınıb şöhrət qazanmışdır; Onun əsərlərində Şərq xalqlarının həyatı özünün geniş bədii əksini tapmışdır; Nizami Gəncəvi Şərq ölkələrində qəbul olunmuş dildə yazıb-yaratmışdır; Şairin əsərləri Şərqdə daha çox oxunur… Türk-müsəlman dünyasında sanki hər xalq Nizami Gəncəvinin əsərlərində öz taleyini görür, çarəsini axtarıb tapa bilir.

Bütün bunlarla bərabər, Nizami Gəncəvinin Azərbaycan xalqına mənsub sənətkar olması şəksizdir. O, dünya ədəbiyyatının və Şərqin görkəmli sənətkarı olmaqla bərabər, həm də konkret olaraq qədim tarixə malik olan Azərbaycan xalqının böyük oğlu, qüdrətli şairi və görkəmli mütəfəkkiridir.

Nizami Gəncəvinin əsərlərində Azərbaycan mövzusunun özünəməxsus yeri vardır. Azərbaycanın qədim Bərdə şəhərini vəsf etdiyi məqamlarda şairin Vətən sevgisi aşkar nəzərə çarpır. "Xosrov və Şirin" poemasında Kəpəz dağının, "İsgəndərnamə"də Dərbənd qalasının təsvirində də Nizami Gəncəvinin doğma Azərbaycana dərin məhəbbəti yüksək bədii səviyyədə ifadə olunmuşdur.

Nizami Gəncəvinin Bərdə hökmdarı Nüşabəyə münasibətində də eyni doğmalıq hiss olunur. Şair özünün ədalətli hökmdar konsepsiyasını Azərbaycan hökmdarı Nüşabə obrazı ilə yeni çalarlarla zənginləşdirmişdir. Bəlkə də, Bərdə hökmdarı Nüşabə Nizami Gəncəvinin düşündüyü ideal hökmdar obrazının yekunudur. Dünyanı fəth etmiş Makedoniyalı İsgəndəri özünün ağıllı fikirləri ilə heyrətləndirməyi bacarmış Azərbaycan qadın hökmdarı Nüşabəni şair rəğbətlə vəsf etmiş, onun aydın bədii obrazını yaratmışdır:

Ağıllı, tədbirli olması, müdrikliyi ilə dünyaca məşhur olan Makedoniyalı İsgəndəri mat qoyması Nizami Gəncəvinin Azərbaycan hökmdarı Nüşabənin timsalında əsl ədalətli hökmdar obrazını yaratdığını düşünməyə əsas verir.

Nizami Gəncəvinin Şirvanşah Axsitanın "Leyli və Məcnun" mövzusunda fars dilində əsər yazdırmaq təklifini qəzəblə qarşılaması faktı da şairin azərbaycanlı olmasını təsdiqləyən amillərdəndir. Şirvanşah Axsitanın məktublarından "Türk dili yaraşmaz şah nəslimizə, Əskiklik gətirər türk dili bizə" kimi misraların Nizami Gəncəvini narazı salması şairin azərbaycanlı olduğunu açıq şəkildə göz önünə gətirir. "Leyli və Məcnun" poemasında həmin münasibətlə yazılmış aşağıdakı misraları yalnız azərbaycanlı şair ifadə edə bilərdi:

*Qulluq halqasına düşdü qulağım,*
*Qan vurdu beynimə, əsdi dodağım.*
*Nə cürətim vardı ki, evdən qaçım,*
*Nə də gözüm vardı xəzinə açım.*
*Ömrüm viran oldu, solub-saraldım,*
*Bu əmrin önündə cavabsız qaldım.*

Məlum olduğu kimi, Nizami Gəncəvi Şirvanşah Axsitanın tapşırığına yalnız oğlu Məhəmmədin xahişindən sonra əməl etmişdir.

Böyük Azərbaycan şairi Nizami Gəncəvi ölməz əsərlərini, o cümlədən məşhur "Leyli və Məcnun" poemasını fars dilinin Azərbaycan ləhcəsində qələmə almışdır. Dahi şairin əsərlərinin öz dövründə və vəfatından dərhal sonra köçürülmüş əlyazmaları Azərbaycan ləhcəsi ilə fars dilində qələmə alınmışdır. Şairin əsərlərinin XIII əsrə aid əlyazmalarında fars dilinin Azərbaycan ləhcəsi hiss olunacaq səviyyədə qorunub saxlanılmışdır. Lakin sonralar farsdilli katiblər Nizami Gəncəvinin əsərlərinin üzünü köçürərkən Azərbaycan ləhcəsini "redaktə" edərək aradan qaldırmışlar. Dünya arxivlərində isə şairin XIV əsrdən sonrakı əlyazmaları geniş yer tutur. Nizami Gəncəvinin "Xəmsə"sinin fars dilində Azərbaycan ləhcəsində yazılmış əlyazmaları indi də dünya muzeylərində və kitabxanalarında saxlanılır. Böyük sənətkarın əsərləri kitab halında nəşr olunarkən farsdilli katiblərin köçürdükləri əlyazmalara üstünlük verildiyi üçün Azərbaycan ləhcəsinin izləri itmişdir.

Tədqiqatçılar Nizami Gəncəvinin fars dilində yazılmış əsərlərində şairin öz ata-anasının türk olması haqqında da məlumat verildiyini diqqət mərkəzinə çəkirlər. Şairin atası Yusif Zəki və anası Rəisə xanım türk milli kimliyinə mənsub idilər. Nizaminin əsərlərində fars dilində yazılmış "Rəiseye-qord" kəlməsi igid, yaxud vüqarlı, qürurlu Rəisə mənasını daşıyır. Atası Yusif Zəki Gəncə şəhərində sənətkarlıqla məşğul olmuşdur. Bəlkə də, şairin "Kərpickəsən kişinin dastanı"ndakı böyük məhəbbətlə yaradılmış usta, bənna obrazı onun doğma atasının prototipidir.

Nizami Gəncəvinin müasirləri ilə əlaqələri də onun Azərbaycanda yaşayıb-yaratdığını yəqinləşdirməyə əsas verən dəlillərdəndir. Bu cəhətdən Nizami Gəncəvi-Xaqani Şirvani münasibətləri xüsusi əhəmiyyətə malikdir. Müşahidələr göstərir ki, Nizami Gəncəvi böyük azərbaycanlı müasiri Xaqaninin (1120-1199) yaradıcılığına rəğbət bəsləmiş, onu qəlbinə yaxın sənətkar kimi qəbul etmişdir. Hətta bir rəvayətdə Nizami Gəncəvinin müasiri Əfzələddin Xaqaninin vəfatı ilə əlaqədar mərsiyə yazması faktı öz əksini tapmışdır.

Dahi şairlə, təxminən, eyni dövrdə yaşayıb-

Ardı 4-cü səhifədə

yaratmış məşhur təzkirəçi Dövlətşah Səmərqəndi "Daneşmandani-Azərbaycan" təzkirəsində Nizami Gəncəvinin Azərbaycan dilində yazılmış "Divan"ının olması barədə məlumat vermişdir. Təəssüf ki, həmin "Divan" itmiş, dövrümüzə qədər gəlib çatmamışdır.

Məzarının Gəncə şəhərində olması da Nizami Gəncəvinin Azərbaycan şairi olduğunu təsdiqləyən mühüm faktlardandır.

Nizami Gəncəvinin zəngin və mənalı yaradıcılığı Şərq intibah mədəniyyətinin əhəmiyyətli hadisəsidir. Şairin ölməz əsərləri dünya ədəbiyyatı xəzinəsinin qiymətli sərvətidir. Nizami Gəncəvi Azərbaycan xalqının ümumdünya mədəniyyətinə bəxş etdiyi böyük dühə və qüdrətli sənətkardır.

Nizami Gəncəvinin ölməz "Xəmsə"si orta əsrlərdə və XIX əsrdə əlyazma halında Azərbaycanda və Şərq ölkələrində geniş yayılmışdır. Şair "Xəmsə"yə daxil olan əsərlərindən hər birinin əlyazmasını Şərq ölkələrinin hökmdarlarına göndərmişdir. Bu əsərlər müxtəlif ölkələrin saraylarında, rəsmi dairələrində oxunub müzakirə mövzusuna çevrilmişdir. Beləliklə, Nizami Gəncəvini hələ öz dövründə geniş dairədə, Şərq miqyasında nəinki tanımış, qüdrətli sənətkar kimi qəbul etmişlər. Hazırda dünyanın ən məşhur muzeylərində və kitabxanalarında Nizami Gəncəvinin əsərlərinin əlyazma nüsxələri saxlanılır. Dahi şairin əsərləri əlyazma halında Azərbaycanda da yayılmışdır. Nizami Gəncəvinin əsərləri hər bir azərbaycanlı üçün əvəzsiz hədiyyə hesab olunmuşdur. Bu, indi də belədir.

Göründüyü kimi, dünya şöhrətli dahi Nizami Gəncəvi, hər şeydən əvvəl, böyük Azərbaycan şairi və mütəfəkkiridir. Bu qüdrətli sənətkarı Azərbaycan xalqı dünyaya bəxş etmişdir. Nizami Gəncəvinin əsərləri dünyanın əksər mədəni xalqlarının dillərinə tərcümə olunmuşdur. Bəlkə də, Nizami dünya ədəbiyyatında xarici dillərdə ən çox oxunan nadir sənətkarlardandır. Nizami irsinin tədqiqi ilə də az qala bütün dünya məşğuldur. Nizamişünaslıq dünya şərqşünaslıq elminin məxsusi bir istiqamətinə çevrilmişdir. Nizami Gəncəvinin haqqında ayrı-ayrı dillərdə yazılmış kitablardan və dahi sənətkarın müxtəlif dillərə tərcümə olunmuş əsərlərindən nəhəng bir kitabxana yaratmaq mümkündür. Bu dahi sənətkar haqqında uzun əsrlər ərzində ən çox elmi əsərlər şairin Vətəni Azərbaycanda yaradılmışdır. Azərbaycan dünya Nizamişünaslıq elminin əsas mərkəzidir. Bununla belə, hansı dildə yazıb-yaratmasından, hansı ölkədə öyrənilib-oxunmasından asılı olmayaraq, Nizami Gəncəvinin əsərləri azərbaycanlı ruhunun yüksək bədii ifadəsindən ibarətdir. Nizami Gəncəvi dünya ədəbiyyatında Azərbaycanın qüdrətli təmsilçisi, böyük elçisidir. Azərbaycan xalqı Nizami Gəncəvi kimi ölməz sənətkarı ilə haqlı olaraq fəxr edir.

Dahi şair əsərlərində elmi, istedadı və zəhmətkeşliyi, mənəvi kamilliyi, insanpərvərliyi var gücü ilə təbliğ etmişdir. Nizami Gəncəvi bu fikirdə idi:

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*

Nizaminin fikrincə, şüurlu əmək, məsuliyyət, zəhmət insanı ucaldan əsas həyati mənbədir. O, yazırdı ki:

*Qana qəltan etsə də, səni zəhmət tikanı,*
*Çalışmaqdan usanma, işə alışdır canı.*
*Öz halal zəhmətində namuslu insan sayıl,*
*Hər yetənə alçalma, əl açıb olma sail!*

Bir sözlə, Nizami Gəncəvinin zəngin yaradıcılığı indiki və gələcək nəsillər üçün də ən faydalı həyat və ədəbiyyat dərsləri, faydalı və ibrətamiz öyüdnamələrdir.

Kimdir Nizami Gəncəvi?

Bu suala verilmiş ən yüksək cavab belədir: Şeyx Nizami!

Qədim dövr və orta əsr fəlsəfi təliminə görə Şeyx ya torpaq sahibi, ya da qəbilə başçısı, yaxud da ruhani atadır. Lakin Nizaminin timsalında Şeyx kəlamı daha çox mənəvi ucalığı fəth etmiş ağıl və kamal sahibi, öz sözlərilə desək, "könül mülkünün sultanı" deməkdir.

Şeyx Nizami Gəncəvi böyük mütəfəkkirdir. Dövlətşah Səmərqəndi onu sadə və təvazökar həyat keçirən, çox iti zehinli, bilikli və məlumatlı bir şəxs kimi qiymətləndirmişdir. O, şairin yaradıcılığından bəhs edərkən, Nizamini "Xərabatın bülbülü" adlandırmışdır. Xərabat "huşyar adamların yığınaq yeridir". Qədim və orta əsr şairləri içərisində Nizami Gəncəvi qədər ağıl və kamalın qüdrətinə möhkəm inam bəsləyən sənətkar tapmaq çətindir:

*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı.*
*Kim ki, yetişmədi ağıldan bara,*
*Oxşar insan sifət əjdahalara.*

Və yaxud:

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*

Sələfi Şeyx Əbülqasım Firdovsi, necə deyərlər, hərb və sülh şairi idi. Xələfi Məhəmməd Füzulini bütün dünya qəlb şairi kimi tanıyır. Nizami Gəncəvi cəng ədəbiyyatı ilə, əməllə qəlb arasında ağıl zirvəsidir.

Nizami Gəncəviyə "Pənc gənc" şairi deyənlər də olmuşdur. Bu sözləri onun məşhur "Xəmsə"sinə və özünə də aid edirlər. Yəni yazdığı beş möhtəşəm əsər – "Xəmsə" daima əbədi olaraq gəncdir, təzə-tərdir, köhnəlməyəndir. Yaxud da Nizami Gəncəvinin özü də əsərləri – "Xəmsə"si kimi həmişə cavandır. Nizami Gəncəvi ağıl və idrak şairidir.

Dünya elmi-ədəbi fikrində Homer "kor ozan", Şekspir "faciə ustadı", Puşkin "rus şeirinin günəşi" adlandırılıb. Ulduzlarla və ayla müqayisə edilən başqa sənətkarlar da vardır. Lakin obrazlı şəkildə desək, təsəvvüredilməz qədər böyük ucalıq sahibi olan Nizami Gəncəvi ədəbiyyatda müəllimlərin müəllimidir:

*Hər kim öyrənməyi bilməyirsə ar,*
*Sudan dür, daşdan da gövhər çıxarar.*

Nizami Gəncəvinin əsərlərində az qala hər beyt aforizm kimi səslənir. "Xəmsə" başdan-başa aforizmlər külliyyatıdır:

*...Qələmə gərəkdir elə söz almaq,*
*Şüurdan, ağıldan olmasın uzaq.*
*...Doğruya azacıq bənzəyən yalan,*
*Yaxşıdır yalana bənzər doğrudan.*

Əbədiyyət qazanmış Nizami Gəncəvi bizim müasirimizdir. Onun XII əsrdə canlandırdığı böyük ideyalar bu gün üçün də aktual və əhəmiyyətlidir. Bu, böyük sənətin ölməzliyinin inkaredilməz gerçəkliyidir. Dahi şairin vaxtilə özünün əbədi şöhrəti haqqında böyük uzaqgörənliklə bəyan etdiyi aşağıdakı fikirlər bu gün üçün də, uzaq gələcək üçün də qəbul edilən obyektiv reallığın ifadəsidir:

*...Dedim: Məni görmək istəsə hər kim,*
*Beytimdə görünər ona surətim.*
*...Şeiri oxunanda bu Nizaminin,*
*Özü də hər sözdə görünər yəqin.*
*...Yüz il sonra sorsan bəs o hardadır?*
*Hər beyti səslənər: Burda, burdadır!*

Nizami Gəncəvi əbədiyyət qazanmış görkəmli sənətkardır.

Dahi sənətkarın adı onun vətəni Azərbaycanda əbədiləşdirilmişdir. Bakı şəhərində Nizami Gəncəvinin heykəli ucalır. Ölkəmizdə Nizami Gəncəvinin adına məktəblər, muzeylər, küçələr vardır. Müstəqil Azərbaycan dövlətinin təşəbbüsü və dəstəyi ilə Moskvada, Pekində, Romada Nizami Gəncəvinin heykəlləri ucaldılmışdır. Azərbaycanda Nizami Gəncəvinin anadan olmasının 800, 840 və 850 illik yubileyləri dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunmuşdur.

Dahi sənətkar Nizami Gəncəvinin ölməz əsərləri həmişə gəncdir, aktualdır, bəşəridir və müasirdir. Nizami bütün zamanlar üçün humanizmin, ədalətin, bərabərliyin böyük carçısıdır.

Bəşəriyyətin həmişə Nizami Gəncəvinin böyük ideallarına ehtiyacı olacaqdır.

*Görkəmli Azərbaycan şairi Nizami Gəncəvi bütün zamanların və gələcəyin qüdrətli şairi və böyük mütəfəkkiri kimi əbədiyyət qazanmışdır.*

**İsa HƏBİBBƏYLİ**
***akademik***

*Xalq təqvimi*

## Torpağın qarası üz ağardar



***Boz ayın ikinci çərşənbəsi Torpaq çərşənbəsidir. Xalqımızın əsrlər boyu yaddaşında hifz etdiyi və bu günümüzəcən keçirdiyi mərasimlərin, adət-ənənələrin təqvim mərasimlərimizdə özünəməxsus yeri vardır. Suyun donunun açılması ilə torpağa bir dirilik gəlir. Su nə qədər aydınlıqdırsa, torpaq da bir o qədər insanın ruzi mənbəyini, bərəkətini təmin edəndir. Bu mənada, əcdadlarımız donu açılan su ilə torpağa həyat verməyə çalışıblar. Beləliklə də, Torpaq çərşənbəsindən sonra Naxçıvan Muxtar Respublikasının, demək olar ki, əksər bölgələrində şum və əkin işlərinə başlanılmışdır.***

Folklor yaddaşımızda insanın yaradılışının dörd mərhələdə həyata keçirildiyi düşüncəsinə rast gəlirik. Yaradan əvvəlcə suyu götürdü, onu torpaqla qarışdıraraq bir insan modeli hazırladı, sonra ona ruh (nəfəs-hava-yel) verdi, ən sonda isə onu istiliklə təmin etdi (Günəş sistemində müəyyən bir məkanda məskunlaşdırdı). Beləliklə, İlahi tərəfindən həyata keçirilən yaradılış ardıcıllığı çərşənbələrdə qeyd olunaraq yaradana minnətdarlıq hissi kimi ortaya çıxdı.

Naxçıvanda isə Torpaq çərşənbəsinin xüsusi bir məqamla əlaqələndirilməsi özünü daha qabarıq büruzə verir. Bəşəriyyətin ikinci atası Nuh Peyğəmbərin quruya çıxması, yenidən canlıların münbit yaşayış şəraiti ilə təmin olunması prosesinin ardıcıllığı Naxçıvanda çərşənbələrin qeyd olunma ardıcıllığının özündə əks etdirir. Mənbələrdə qeyd olunur ki, Nuh Peyğəmbərin hazırladığı gəmi suyun üzərində idi. Dünyanın hər tərəfini su almışdı. Su çəkildikdə gəmi qayaya toxunur, torpağa oturur. İnsanlar, canlılar torpağa ayaq basırlar. Beləliklə də, insanın mifik düşüncəsində su-torpaq ardıcıllığı böyük məna daşımağa başlayır. Nuhun gəmisi yüksək bir ərazidə, bir dağın zirvəsində ilk olaraq Torpaqla – Yerlə təmas edir.

Qeyd olunanlar bir daha göstərir ki, ulularımız sudan sonra torpağı müqəddəs bilmiş və su çərşənbəsindən sonra torpaq çərşənbəsini qeyd etmişlər. Qeyd edirik ki, boz ayın ikinci çərşənbəsi Torpaq çərşənbəsidir. Buna xalq arasında bəzən "Üsgü çərşənbə", "İkinci çərşənbə", "Xəbər çərşənbə" də deyilir. Bundan əlavə, bu çərşənbəyə həm də "külə çərşənbə" deyilmişdir. Yəni bu çərşənbə tam deyil, yarımçıqdır, yəni külədir.

Bu çərşənbədə torpaq oyanır və artıq əkinə hazır olduğunu göstərir. Torpaqdan otlar baş qaldırır. El arasıda deyərlər: "Cəmrə torpağa düşür". Torpaqdan buxar qalxır, deməli, torpaq isinmişdir. Yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yavaş-yavaş əkilməlidir. Xalq arasında olan inama görə, bolluq, bərəkət rəmzi olaraq Torpaq çərşənbəsində torpağa buğdadan toxum qoyulmalıdır. Evlərdə səməni elə bu çərşənbədən qoyulmalıdır ki, axır çərşənbəyə hazır olsun.

Torpaq insanları yaşayış üçün zəruri olan qida ilə təmin edən real həyati varlıqdır. Torpaq deyər öldür məni, dirildim səni. Butipli saysız-hesabsız folklor örnəklərimizin də məğzində torpağın bir yaradıcı ünsür kimi insanın yaşayışı və fəaliyyəti üçün əsas stimulverici güc olduğu dayanır.

Bütün bunlar torpağın real həyatla, gündəlik məişətimizlə bağlı olduğunu göstərən amillərdir. Qədim dövrdən günümüzədək torpaqla bağlı el arasında müxtəlif deyimlər, atalar sözləri və məsəllər olubdur: Torpağa xor baxsan, o, sənə kor baxar. Torpağın sirrini əli torpaqda olanlar bilər. Torpağa əyilən namərdə əyilməz, Torpaqla çəlləşən, xoşbəxtliklə əlləşər. Qışın qar suyu, torpağın bar suyu. Torpaqda sirr də var, dürr də və sair.

Ümumiyyətlə, Torpaq çərşənbəsindən etibarən suyun həyat verdiyi torpaq canlanır və o, bol ruzi-bərəkət mənbəyi kimi insanların öhdəsinə verilir. Ataların dediyi kimi: "Torpaq ovuclayan qızıl ovuclayar". Bu çərşənbədən etibarən xalq, insanlar "qızıl" ovuclayarlar ki, torpağın dediyi kimi, "Sən mənə tər ver, mən sənə zər verim" atalar sözündəki zəri əldə etsinlər. Bir də ki axı bu da ataların sınanmış kəlamıdır: Torpağın qarası üz ağardar.

*Siz də torpağa əyilin ki, üzünüz ağarsın. Torpaq çərşənbəniz mübarək olsun.*

**Elxan YURDOĞLU**
***filologiya üzrə fəlsəfə doktoru***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2973 | 220,0 | 220,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2087 | 148,0 | 148,0 | 100,0 |
| 3. | Babək rayonu | 1887 | 133,8 | 133,8 | 100,0 |
| 4. | Ordubad rayonu | 962 | 67,8 | 67,8 | 100,0 |
| 5. | Culfa rayonu | 832 | 59,1 | 59,1 | 100,0 |
| 6. | Kəngərli rayonu | 603 | 42,8 | 42,8 | 100,0 |
| 7. | Şahbuz rayonu | 437 | 31,0 | 31,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 212 | 15,0 | 15,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12270 | 1104,3 | 1017,9 | 92,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **22263** | **1821,8** | **1735,4** | **95,3** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 22 milyon 263 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 821 min 800 manat olmuş, cəmi 1 milyon 735 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 95,3 faizini təşkil edir.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 194